Carçı

2011-ci ildən

№67

İyul/ 2024



Carçı
"ATƏŞGAH" SIĞORTA QRUPUNUN
RÜBLÜK JURNALI

№ 67
İyul/ 2024

RÜBLÜK JURNAL

AtəşgahSığorta

# MÜNDƏRİCAT




**İkinci rübün ilk mötəbər tədbiri**
“Azərbaycan İnsurtech Zirvə” toplantısı
səh.3

Siz də jurnalımızın müəllifi və ya aktiv üzvü ola bilərsiniz. Özünüzü yeni sahədə sınayın!

Biz yeni fikir və təkliflərə açığıq.

İstək və təkliflərinizi elektron ünvanımıza göndərin:

**pr@ateshgah.com**

İkinci rübün ilk mötəbər tədbiri “İnsurtech” zirvə toplantısı
səh. 03

Türk Dövlətləri İqtisadi Forumu 2024
səh. 04

İllik mühasiblər Forumu
səh. 04

Təmizlik insanın cövhəridir!
səh. 05

Region əməkdaşlarımızla görüş
səh. 06

Naxçıvan ofisində təlim
səh. 06

İsrafil Aşurlı ilə alpinizmin sirrləri
səh. 07

Televiziya kanallarına müsahibələrimiz
səh. 08

Biznes İdarəçiliyi Forumu
səh. 09

“Sığortanın əsasları” kursu üzrə sertifikasiya
səh. 10

Azərbaycan-Tacikistan Biznes Forumu
səh. 11

Beynəlxalq Elmi Gənclər Forumu
səh. 11

“Dreamland Golf Club”da VİP müştərilərlə görüş
səh. 12

Universitetlərlə əməkdaşlığımız
səh. 13

Katastrofik Risklərə Qarşı Dayanıqlı Maliyyə Sistemi Konfransı
səh. 15

“Hündürlükdə icra olunan əməliyyatların təhlükəsizliyi” seminarı
səh. 16

Azərbaycan Marketinq Zirvəsi
səh. 17

Uşaqlar bizim gələcəyimizdir!
səh. 18

I -ci Regional Sığorta Forumu
səh. 19

Əməkdaşlarımızın motivasiyası
səh. 20

Moto tədbirə rəng qatan - qırmızı, sarı, narıncı...
səh. 21

Dövlət Məşğulluq Agentliyi ilə əməkdaşlıq
səh. 21

Azərbaycan Beynəlxalq Sığorta Forumu
səh. 22

Qurban bayramı!
səh. 23

Hazırki nüsxədə əməyi keçənlər:

**L. Babayeva**
**S.Quliyeva**
**Ş. Həsənsoy**
**S. Məmmədova**

# İkinci rübün ilk mötəbər tədbiri
## "İnsurtech" zirvə toplantısı

Aprel ayının 16-da Azərbaycan Mərkəzi Bankının strateji dəstəyi, "Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyi, "Türkiye InsurTech Hub" və "New Generation Management Company"nin birgə təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə "Insurtech" zirvə toplantısı keçirildi.

Tədbirin keçirilməsində başlıca məqsəd Türkiyənin sığorta şirkətlərinin rəqəmsallaşma sahəsində təcrübəsi və sektorun lideri olan texnologiya brendləri ilə birgə Azərbaycanın sığorta bazarında rəqəmsallaşmanın inkişafına töhfə verməsindən ibarət olub.
Ölkənin bir sıra sığorta şirkətlərinin iştirakı ilə baş tutan tədbirdə, şirkətimiz veb saytın və mobil tətbiqin təkmilləşdirilməsi istiqamətində apardığı uğurlu strategiyaya əsasən hazırlıdağı təqdimatı nümayiş etdirmişdir.




Təqdimatda müasir dünyada texnologiyalardan ən effektiv şəkildə istifadə edərək şirkətin müştərilərinin mobil tətbiq vasitəsilə sığorta məhsullarını rahat şəkildə əldə etməsi vurğulanmışdır. Bu, şirkətin sığorta məhsullarının təqdimatında sürət, əlçatmazlıq və müştərilərin tələblərinə cavab verməkdə effektivliyin artırılmasını hədəfləyən bir addımdır. Ayrıca mobil tətbiqin istifadəsi, müştərilərə daha asan və rahat bir sığorta alışverişi təklif edərək, müştərilərin şirkətə olan rəğbətini artırmaq üçün də vacib bir addımdır.






# Türk Dövlətləri İqtisadi Forumu 2024

2 May tarixində ölkəmiz “Türk Dövlətləri İqtisadi Forumu 2024” adlı böyük bir layihəyə ev sahibliyi edib!
Forum Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Türk Dövlətləri Təşkilatı (TDT) və Yazılım Sanayiçileri Derneyi (YASAD) tərəfdaşlığı, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Azərbaycan Françayzinq Assosiasiyasının (AFA) birgə təşkilatçılığı ilə baş tutub.
Türkdilli ölkələr arasında ilk dəfə keçirilən tədbir, bu ölkələr arasında mövcud bazar və investisiya imkanlarının öyrənilməsi, markaların beynəlxalq mühitə inteqrasiyasının təşkili, şirkətlərarası kommersiya münasibətlərinin inkişaf etdirilməsi, xarici investor və şirkətlərin ölkəyə cəlb olunmasına dəstək, türkdilli ölkələr arasında münasibətlərin gücləndirilməsi məqsədi daşımışdır.

1000-dən çox ziyarətçinin qatıldığı forumda, "Atəşgah" Sığorta Şirkətinin Mühüm müştərilərlə iş üzrə 1-ci şöbənin müdiriVüqar Hüseynli, Mühüm müştərilərlə iş üzrə 2-ci şöbənin müdiri İlkin Qasımov, Partnyor satışların inkişafı departamentinin direktoru Ramin Mehdizadə və Pərakəndə satışların inkişafı departamentinin direktoru Rövşən Rüstəmov iştirak etmişlər.




# İllik Mühasiblər Forumu

4 may 2024-cü il tarixində “Atəşgah” Sığorta Şirkətinin Pərakəndə satışların inkişafı departamentinin əməkdaşları və Sumqayıt filialının müdiri Rüstəm Əsədov “İllik Mühasiblər Forumu”da iştirak ediblər.
Forumun gündəliyinə Mühasibatlığın Rəqəmsal dövrü, Sahibkar-Mühasib-DVX ilə qarşılıqlı münasibətləri, vergi uyğunsuzluqları, tədbirlər və çıxış yolları, eləcə də, mühasibatlıqda beynəlxalq təhsil standartları kimi məsələlər müzakirə olunmuşdur.



# Təmizlik insanın cövhəridir!

İstər yaşadığımız evi, istərsə də çalışdığımız iş yerini qüsursuz göstərən ən əhəmiyyətli məqam tərz, mebel avadanlıqları, rənglər, dizayn və s. deyil. Təbii ki, təmizlik, səliqə və nizam-intizamdır! Bu məqsədlə hərdən iməclik təşkil edib, lazımsız əşyalardan yaxa qurtarmaqda fayda var. Günümüzün yarı hissəsini iş yerində keçirtdiyimizi nəzərə alaraq buraya “ikinci evimiz” desək heç də yanılmarıq.

Bu prinsipə əsaslanaraq may ayının 4-ü şirkətimizdə səliqə-səhmanı təmin etmək və ofisdaxili təmiz ekoloji mühit yaratmaq məqsədilə iməclik işləri aparılıb. İməcliyin qeyri-iş günü keçirilməsi ilə əlaqədar olaraq əməkdaşlara övladları ilə birlikdə gəlmələrinə rəhbərlik tərəfindən icazə verilmişdi. İnsan resurslarının idarə edilməsi şöbəsinin əməkdaşları tərəfindən balaca dostlarımızı sevindirmək üçün kiçik, şirin hədiyyələr paylanmışdır. Bununla da ofisimizdə səmimi və maraqlı mühit yaranmışdır.














# Region əməkdaşlarımızla görüş





"Atəşgah" Sığorta Şirkəti hər zaman regionlarda fəaliyyət göstərən filialların inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır.
Bununla əlaqədar filial nümayəndələri ilə mütəmadi görüşlər təşkil edilir və bir çox mühüm məsələlər ətrafında müzakirələr aparılır.
Belə ki, may ayının 6-ı şirkətin Şəki filialında "Atəşgah Həyat" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev, İdarə Heyətinin üzvü Yusif İmamverdiyev, Zaqatala və İsmayıllı nümayəndəliklərinin rəhbərləri arasında , may ayının 7-i isə Bərdə və Mingəçevir nümayəndəliklərinin rəhbərlərinin iştirakı ilə Gəncə filialında görüş baş tutub.
Keçirilən görüşlərdə cari ilin birinci rübündə həyata keçirilmiş, eləcə də növbəti dövrlər ərzində icrası planlaşdırılan işlər, sığorta sahəsinin mövcud problemləri, habelə qeyd olunanlarla bağlı rüblük hesabatların təqdim edilməsi məsələləri haqqında müzakirələr aparılmışdır.

# Naxçıvan ofisində təlim

5 aprel 2024-cü il tarixində "Atəşgah" Sığorta Şirkətinin Regional satış 1 şöbəsinin müdiri Amil Həsənov və Regional satış 2 şöbəsinin mütəxəssisi Vəliyullah Həbibzadə tərəfindən Naxçıvan nümayəndəliyinin əməkdaşları üçün maarifləndirici təlim keçirilmişdir.
Təlimdə Kasko, İstehsalatda bədbəxt hadisələr, İcbari əmlak(qeyri-yaşayış sahələrinin hesablanması), Həyatın yığım sığortası, Səfər sığortası, Fərdi qəza sığortası və digər sığorta növləri haqqında geniş fikir mübadiləsi aparılmışdır.





# İsrafil Aşurlı ilə alpinizmin sirrləri

Alpinizm klubunun yaradılmasında müstəsna xidmətlər göstərmiş, Azərbaycan Alpinizm Federasiyasının Baş katibi İsrafil Aşurlı may ayının 14-ü "Atəşgah" Sığorta Şirkətinin baş ofisində şirkət əməkdaşları ilə görüş keçirmişdir. Görüşün mahiyyəti cari ilin iyul ayında baş tutması planlaşdırılan "Heydər Əliyev" zirvəsinə yürüşün təşkili ilə bağlı olmuşdur.





Şirkətimizin əməkdaşlarının iştirakı ilə baş tutacaq yürüş haqqında maraqlı məqamlara toxunan peşəkar alpinist İsrafil Aşurlı, iştirakçıların yürüş zamanı qarşılaşa biləcəyi müxtəlif çətinliklərdən narahat olmamağı və bu addımın son dərəcədə maraqlı, əyləncəli olduğunu bildirmişdir.

Həvəskar alpinistlərə yürüş zamanı zəruri olan ləvazimatlar, geyimlər və qida məhsulları haqqında da ətraflı məlumat verilmişdir.



# Televiziya kanallarına müsahibələrimiz

May ayının 10-u “Ateşgah” Sığorta Şirkətinin əməkdaşı Tural Kələntərli  Xəzər televiziyasına verdiyi müsahibədə yaxın dövrlərdə insanların bir çoxunun elektromobillərə üz tutmasından söhbət açıb.

O bildirib ki, elektromobilləri əldə etmək və ya təmir etmək məqsədilə güvənli, etibarlı mərkəzlərə müraciət etmək vacibdir. Qeyri-peşəkar mərkəzlərə müraciət edən şəxslərin avtomobillərinin orijinallığına isə zəmanət verməyin mümkünsüzlüyünü vurğulayıb .







"Atəşgah Həyat" Sığorta Şirkəti İdarə Heyəti sədrinin müavini və Azərbaycan Sığortaçılar Assosasiyasının ekspert qrupunun üzvü Orxan Şirinli “ARB 24”  telekanalının efirində yayımlanan “İşgüzar Səhər” adlı verilişdə iştirak edib.Verilişdə istehlak kreditlərinin ödənişi zamanı diqqət edilməli məqamlardan söhbət açılıb. Belə ki, əlillik və ya ölüm hallarında istehlak krediti ödənişinin həyata keçirilməsi zamanı problemlərin yaranmaması üçün insanların həyat sığortası etdirmələrinin müsbət tərəfləri qeyd edilib.



İyunun 10-da  "Atəşgah Həyat" Sığorta Şirkəti-nin İdarə Heyəti sədrinin müavini Orxan Şirinli Azərbaycan Televiziyasına müsahibə verib. Müsahibədə bu günün ən aktual mövzularından biri olan istehlak kreditləri və ondan istifadənin müsbət tərəfləri qeyd edilib.

Belə ki, həyatını könüllü şəkildə sığortalayan şəxslərin bədbəxt hadisə nəticəsində üzləşdiyi problemlər və ya ölüm halları zamanı ailəsinin heç bir borc ödəmək məcburiyyətində qalmamasından söhbət açılıb.

Sözügedən xəbər 10 iyun saat 16:30-da Azərbaycan Televiziyasının “İqtisadiyyat xəbərləri” verilişinin efirində yayımlanmışdır.

# Biznes İdarəçiliyi Forumu

18 may tarixində ölkəmizdə artıq 6-ci dəfə keçirilən Biznes İdarəçiliyi Forumunda " Atəşgah Həyat" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev spiker qismində iştirak etmişdir. Azər Əliyev spiker olduğu paneldə "Korporativ idarəetmədə innovasiya və texnologiyaların rolu" mövzusunda iştirakçılarla öz idarəetmə təcrübəsini bölüşmüş və mövzu ilə bağlı maraqlı disskusiyalar aparmışdır.



Eyni zamanda, forumda "Atəşgah" Sığorta Şirkətinin Mühüm müştərilərlə iş üzrə 1 şöbəsinin müdiri Vüqar Hüseynli və Mühüm müştərilərlə iş üzrə 2 şöbəsinin müdiri İlkin Qasımov da iştirak etmişlər.

Azərbaycanda idarəçiliyin inkişafına təkan vermək, bu sahədə yerli kadrların daha da təkmilləşdirilməsi üçün təşkil edilən tədbirdə dünyada olan idarəçilik trendlərinin, müasir idarəçilik alətlərinin müzakirəsi və biznes idarəçilərinin həmin alətlərdən səmərəli şəkildə istifadə etməsindən söhbət açılıb.






# “Sığortanın əsasları” kursu üzrə sertifikasiya



Bildiyiniz kimi, şirkətimiz  əməkdaşlarının sığorta sahəsində  olan biliklərinin daha da təkmilləşdirilməsi istiqamətində  unikal və çox geniş imkanlar yaradan  təlim-tədris proqramları təşkil etməyə davam edir.
Hər il olduğu kimi, işçilərin karyera yüksəlişinə təkan vermək məqsədi ilə bir sıra təlimlər həyata keçirilir. Bu məqsədlə   “Atəşgah” Sığorta Şirkətini Direktorlar şurasının və Təşkilati Dayanıqlı inkişaf komitəsinin üzvü , eləcə də təlim sisteminin rəhbəri Namiq Xəlilovun rəhbərliyi ilə yanvar ayının 4-dən fəaliyyətə başlayan "Sığortanın əsasları" kursu üzrə iştirakçılarının qiymətləndirilməsi üçün  aprel ayının 4-də imtahan təşkil olunmuşdur.

İmtahan üzrə yüksək nəticə toplayaraq müvəffəqiyyət qazanmış əməkdaşlara may ayının 21-də şirkət rəhbərləri tərəfindən sertifikatlar təqdim edildi və xatirə şəkilləri çəkdirildi.





# Azərbaycan-Tacikistan Biznes Forumu

20 may tarixində Bakıda Azərbaycan-Tacikistan Biznes Forumu keçirilmişdir. Forumda Azərbaycanın əlverişli biznes mühiti və nəqliyyat-logistika potensialı, investorlar üçün yaradılmış imkanlar, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələr haqqında məlumat verilmişdir.

Bununla yanaşı, cari ilin noyabr ayında ölkəmizdə keçirilməsi planlaşdırılan COP29 çərçivəsində əməkdaşlığın perspektivləri qeyd edilərək Tacikistanlı həmkarlar və iş adamları ilə fəal əməkdaşlıq məsələlərinə toxunulmuşdur.






Bir sıra yerli və xarici şirkət nümayəndələrinin iştirakı ilə baş tutan forumda, şirkətimizin Pərakəndə satışların inkişafı departamentinin əməkdaşları da yer alıblar.
Belə ki, forumda Fidan Məmmədova,Emil Baxşıyev,Elnur Zeynalov,Emil Babayev və Şərafəddin Əhmədov iştirak ediblər.

# Beynəlxalq Elmi Gənclər Forumu

16-17 may tarixlərində Moskva şəhərində İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Konqres mərkəzində tibb sahəsini əhatə edən "Beynəlxalq Elmi Gənclər Forumu" keçirilmişdir. 2 gün davam edən forumun gündəliyinə 16 may tarixində "Təməl fənnlər", 17 may tarixində isə "Kliniki fənnlər" üzrə mövzular daxil edilmişdir.

Şirkətimizin Tibbi yardımın təşkili şöbəsinin əməkdaşı İlqar İsazadə Nevrologiya və Neyrocərrahiyyə üzrə tezislərin təqdimatını, eləcə də müdafiəsini uğurla həyata keçirməyə müvəffəq olmuşdur.



Qeyd edək ki, tibb sahəsini əhatə edən mötəbər forumda ölkəmizlə yanaşı bir sıra MDB və Avropanın tanınmış tibb universitetlərinin tələbələri də iştirak etmişdir.



# “Dreamland Golf Club”da VİP müştərilərlə görüş

Müştəri loyallığı proqramları şirkətin müştərilərlə qarşılıqlı kommunikasiyasının əsas dayağıdır. Bu prinsipi rəhbər tutaraq şirkətimiz müştərilərlə sıx münasibətlər yaratmaq və bu münasibətləri qoruyub saxlamaq məqsədilə mütəmadi olaraq tədbirlər həyata keçirir. May ayının 25-i Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin təşəbbüsü ilə "Loyallıq sistemi" çərçivəsində şirkətin VİP müştəriləri ilə görüş keçirildi.





"Dreamland Golf Club"da baş tutan görüş ilk öncə səhər yeməyi ilə yadda qaldı. Süfrə arxasında şirkət əməkdaşları və müştərilər arasında bir çox maraq doğuran məsələlər haqqında söhbətlər aparılmışdır.

Görüşün ən maraqlı anları isə qolf meydançasında yaşandı. Qolf oyunu üzrə təcrübəli müəllimin oyun barəsində təlimatlarından sonra, komandalara bölünmüş iştirakçılar maraqlı oyun nümayiş etdirmişdilər. Sonda isə müştərilər təşkil olunan görüşə görə öz dərin minnətdarlıqlarını bildirmiş, gəzintidən xoş və mənalı təəssüratlarla ayrıldıqlarını vurğulamışdılar.







# Universitetlərlə əməkdaşlığımız

Şirkətimiz hər zaman tələbələrə diqqət və qayğı göstərməyə davam edir! Bu məqsədlə aprel ayının 30-u İnsan Resurslarının İdarəedilməsi şöbəsinin mütəxəssisləri Mədinə Şirinli və Nadirə Məmmədova Bakı Dövlət Universitetində təhsil alan tələbələr ilə görüşüblər. Görüş zamanı tələbə və məzunlar öz ixtisaslarına uyğun vakansiyalar barədə ətraflı məlumatlar əldə edərək CV formalarını əməkdaşlara təqdim etmişlər.Ümumiyyətlə, belə layihələrin keçirilməsinin əsas məqsədi yuxarı kurslarda təhsil alan tələbələrin əmək fəaliyyəti ilə məşğul olmalarını təmin etməkdir. Bu görüşün ardı olaraq isə may ayının 2-i ADA Universitetində tələbə və məzunlar ilə görüş baş tutub.







Bildiyiniz kimi, şirkətimiz hər zaman tələbə və məzunlara dəstək olaraq onların peşəkar bacarıqlarınının artırılması istiqamətində əmək bazarının tələblərinə uyğun təcrübə proqramları təşkil edir. Belə ki, şirkətimiz tələbələrə sığorta sahəsində öz biliklərini sınamaq və inkişaf etdirmələri üçün şəraitin yaradılması məqsədilə bir sıra universitetlər ilə əməkdaşlıq etməyə davam edir. Bu məqsədlə iyun ayının 14-ü İnsan resurslarının idarəedilməsi şöbəsinin əməkdaşı Samirə Quliyevanın təşəbbüsü ilə Bakı Biznes Universitetinin rektoru İbad Abbasovla görüş baş tutub.

Görüşdə universitetin təsisçisi İbad Abbasovla "Atəşgah" Sığorta Şirkəti ilə əməkdaşlıq çərçivəsində şirkətimizə məxsus guşənin yaradılması məsələsi müzakirə olunub.








“Atəşgah” Sığorta Şirkəti öz fəaliyyəti boyunca daim tələbələrin inkişafına yönələn layihələr həyata keçirərək ölkənin aparıcı universitetləri ilə əməkdaşlıq edir. Bu məqsədlə may ayının 10-u Bakı Avrasiya Kollecinin “Sığorta işi” ixtisası üzrə təhsil alan tələbələrlə “Atəşgah” S.Ş-nin Pərakəndə satışların inkişafı departamentinin direktor müavini Emil Baxşıyev və Sığorta məsləhətçiləri ilə iş üzrə 2-ci şöbənin mütəxəssisi Murad Nəzərov arasında görüş baş tutub. Görüşdə, həmçinin hal-hazırda şirkətimizin əməkdaşı olan, Fatimə Əliyeva da iştirak edib.



Sonda isə əməkdaşlar Bakı Avrasiya Kollecinin “Sığorta işi” ixtisasaı üzrə təhsilalanlara “Sığorta agentliyindən Sığorta mütəxəssisliyinə gedən yol” adlı müvzuda təlimçi qismində iştirak etdiklərinə görə təşəkkürnamə ilə təltif olunublar.

# Katastrofik Risklərə Qarşı Dayanıqlı Maliyyə Sistemi Konfransı

22-23 may tarixlərində Bakıda “Katastrofik Risklərə Qarşı Dayanıqlı Maliyyə Sistemi Konfransı” keçirilib. Konfransda “Atəşgah Həyat”

Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev, İdarə Heyəti sədrinin müavini Orxan Şirinli, Əmlak sığortası növləri üzrə anderraytinq və təkrarsığorta şöbəsinin müdiri Şəbnəm Bəşirova və Şəxsi sığorta növləri üzrə anderraytinq və təkrarsığorta şöbəsinin müdiri Aygün Əfəndiyeva iştirak ediblər.







Azərbaycan Respublikası Mərkəzi Bankının və İcbari Sığorta Bürosunun təşkilatçılığı, eləcə də Türkiyənin “T-RUPT” texnoloji şirkətinin, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Sakarya Universiteti, Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin dəstəyi ilə keçirilən konfransda Azərbaycan və ətraf bölgələrin seysmoteknik quruluşu, zəlzələ aktivliyi, ölkəmizdə inşa olunan bina tipləri və onların zəlzələyə qarşı dözümlülüyü məsələləri müzakirə olunub.Konfransda katastrofik risklərin maliyyə təsirləri və bu təsirlərin proqnozlaşdırılması mövzuları ətrafında təcrübə mübadilələri aparılıb. Konfrans çərçivəsində sığorta sektoru üçün zəlzələ, digər təbii fəlakətlər üzrə təkrarsığorta modelləşdirilməsi və tədbiqi məsələləri ilə bağlı təqdimatlar olunaraq təkliflər irəli sürülmüşdür.

# “Hündürlükdə icra olunan əməliyyatların təhlükəsizliyi” seminarı

20 may tarixində SOCAR-ın nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Neft Emalı zavodunun akt zalında “Hündürlükdə icra olunan əməliyyatların təhlükəsizliyi” mövzusunda seminar keçirilib. Tədbir əmək fəaliyyəti prosesində əməyin təhlükəsizliyi, sağlamlıq və iş qabiliyyətinin qorunması tədbirləri çərçivəsində hündürlükdə icra olunan əməliyyatların təhlükəsizliyinin artırılması və təhlükəsiz əmək şəraitinin təmin edilməsi məqsədilə keçirilib.
SOCAR prezidentinin müşaviri Məmməd Əlizadənin iştirakı ilə baş tutan tədbirdə əməyin mühafizəsi üzrə məsul şəxslərlə yanaşı şirkətimizin Biznesə dəstək və əməyin mühafizəsi şöbəsinin əməkdaşı Nəcəf Həsənov da iştirak etmişdir. Tədbirdə iştirakçılara hündürlükdə görülən işlər zamanı təhlükəsizlik qaydaları, sənayenin ən yaxşı təcrübələri barədə məlumat verilmiş, hündürlükdə görülən işlərlə bağlı risklərin idarəolunması məsələləri müzakirə olunmuşdur.






# Azərbaycan Marketinq Zirvəsi

26 may tarixində “Hilton Baku” oteldə Thinkers.az-ın təşkilatçılığı ilə “Azərbaycan Marketinq Zirvəsi” adlı tədbir baş tutub.

Tədbirin məqsədi Azərbaycanda marketinq sahəsində əməkdaşlıq və yeniliyi inkişaf etdirmək, bu sahəyə məxsus peşəkar mütəxəssislərin təcrübələrini artırmaq və zamanla sınaqdan keçirilmiş ənənəvi strategiyaların tətbiqini həyata keçirmək olmuşdur.

3 panel və ümumilikdə 12 spikerin çıxışından ibarət olan forumda şirkətimizin Marketinq və İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Kənan Cəfərov iştirak edərək sertifikat ilə təltif olunmuşdur.






# Uşaqlar bizim gələcəyimizdir!

Şirkətimiz "Uşaqların Beynəlxalq Müdafiəsi Günü" yenə də öz ənənəsinə sadiq qalaraq gələcəyimiz olan uşaqları unutmadı! İyun ayının 1-i Marketinq və İctimaiyyətlə əlaqələr şöbəsinin təşəbbüsü ilə Neon Sənət Muzeyində müştərilərin övladları üçün gəzinti həyata keçirildi.Baş ofisin qarşısında toplaşmaqla başlayan gəzinti bir çox əyləncəli məqamları ilə yadda qalıb.Gəzintiyə valideynləri ilə qatılan balaca dostlarımız uşaq musiqilərinin sədaları altında yolboyu xoş anlar yaşayıblar.Qeyri-adiliyi ilə diqqət çəkən muzeyə çatar-çatmaz isə uşaqların əhvalı daha da yüksəldi.Neon işıqların yaratdığı ecazkarlığın sehrindən valeh olan balacaların marağına ən çox səbəb olan isə gipsdən hazırlanan xüsusi fiqurların rənglənmə prosesi olub.






"Kiçik əllər"in yaratdığı sənət əsərləri sayəsində onların üzlərində sevinc və xoşbəxtliyi duymaq olduqca xoş idi. Muzeyin qarşısında çəkilən xatirə şəkili ilə yekunlaşan gəzintiyə görə müştərilər onlara göstərilən diqqət və qayğıya görə əməyi keçən hər kəsə təşəkkürlərini bildirdilər.



# I -ci Regional Sığorta Forumu

Azərbaycanda ilk dəfə Naxçıvan şəhərində "I Regional Sığorta Forumu" keçirilib.
Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş sığorta forumu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Sığortaçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə baş tutub.
Forum çərçivəsində Naxçıvan Muxtar Respublikasında nümayəndəliyi fəaliyyət göstərən sığorta şirkətlərinin təmsilçilərinin müzakirələri baş tutub.






İştirakçı şirkətlərlə sırasında "Atəşgah" Sığorta Şirkətinin Mühüm müştərilərlə iş şöbəsinin müdiri Vüqar Hüseynlinin təqdimatında "Sığortada hadisələrin tənzimlənməsi" mövzusu ətrafında bir sıra maraqlı fikirlər səsləndirilib.



# Əməkdaşlarımızın motivasiyası

Hər zaman əməkdaşları maddi və mənəvi cəhətdən dəstəkləyən şirkətimiz, bu dəfə də satış sahəsində yüksək nəticə göstərərən əməkdaşları diqqətdən kənar qoymadı! Belə ki, iyun ayının 5-i satış sayı yüksək olan, habelə "Atəşgah komandası" na yeni üzv olmaqlarına baxmayaraq fəal çalışan əməkdaşların mükafatlandırılma mərasimi baş tutub. Əməkdaşlar göstərdikləri uğurlu əmək fəaliyyətinə görə müxtəlif hədiyyələrlə mükafatlandırılıblar. Hədiyyələr Kiçik və orta biznesin sığortası departamentinin direktoru Rauf Manafov tərəfindən təqdim edildi. "Atəşgah Həyat" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyevin təşəbbüsü ilə həyata keçirilən tədbirdə, birinci yeri Əli Pəncəliyev, ikinci yeri Hikmət Mustafazadə, üçüncü yeri isə Fərid Səmədzadə qazanıb.

Bundan başqa, şirkətdə yeni fəaliyyət göstərməklərinə baxmayaraq dinamik və eyni zamanda uğurlu nəticələr göstərən xanım əməkdaşlar Səlimə Alxazova və Röya Səfərova da mükafatlandırılıblar.





# Moto tədbirə rəng qatan - qırmızı, sarı, narıncı...

İyun ayının 15-i Lənkəran “Palıdlı” Oteldə moto sürücülərin iştirakı ilə əyləncəli proqram təşkil olunub. Turistlər üçün nəzərdə tutulan tədbirdə şirkətimiz tanıtım xarakter daşıyan guşə ilə çıxış edib.

Belə ki, bölgələrdən qoşulan əməkdaşlarımızın iştirakı ilə şirkətimiz layiqincə təmsil olunmuş, mövcud olan sığorta məhsulları haqqında tədbir iştirakçılarına ətraflı məlumatlar təqdim edilmişdir.






Bir çox əyləncəli məqamları ilə yadda qalan tədbir iştirakçılarına şirkətimiz tərəfindən bukletlər də paylanmışdır.

# Dövlət Məşğulluq Agentliyi ilə əməkdaşlıq

İyun ayının 14-ü İçərişəhər ofisində Dövlət Məşğulluq Agentliyinin rəsmi nümayəndəsi ilə şirkətimizin Pərakəndə satışların inkişafı departamentinin direktoru Rövşən Rüstəmov və İnsan resurslarının idarəedilməsi şöbəsinin əməkdaşı Samirə Quliyeva arasında görüş baş tutub.

İnsan resurslarının idarəedilməsi şöbəsinin təşəbbüsü ilə həyata keçirilən görüşün əsas məqsədi agent korpusunu inkişaf etdirməklə şirkətə yeni sığorta məsləhətçilərinin cəlb edilməsi olub.

Habelə, görüşdə yaxın zamanlarda əməkdaşlıq çərçivəsində faydalı olacaq layihələr haqqında da geniş müzakirələr aparılmışdır.



# Azərbaycan Beynəlxalq Sığorta Forumu

İyun ayının 20-i və 21-i Bakıda Azərbaycan Beynəlxalq Sığorta Forumu baş tutub.Ölkəmizdə sayca 10-cu dəfə təşkil olunan forum Azərbaycan Mərkəzi Bankının strateji dəstəyi və Azərbaycan Sığortaçılar Assosiasiyasının təşkilatçılığı ilə həyata keçirilib. Forumda avtonəqliyyat və sağlamlıq sığortaları, habelə iqlim risklərinin idarə edilməsində sığortanın rolu kimi lokal və qlobal sığorta bazarları üçün aktual olan mövzular ətrafında panel müzakirələr aparılıb.






Tədbirdə dövlət rəsmiləri ilə yanaşı, bir çox yerli sığorta şirkətlərinin nümayəndələri də iştirak ediblər.
Belə ki, “Atəşgah” Sığorta və “Atəşgah Həyat” Sığorta Şirkətlərinin İdarə Heyətinin sədrləri, İdarə Heyətinin üzvləri və digər şirkət rəsmiləri fəal iştirak edərək tədbirə təşrif buyurmuş bir sıra xarici şirkətlərin nümayəndələri ilə geniş disskusiyalar etmişlər.



# Qurban bayramı!



Əziz oxucular! Bildiyiniz kimi, jurnalımızın "Maraqlı faktlar rubrikası" adətən cari rübə təsadüf edən bayramlardan birinin işıqlandırılmasına həsr olunur. Ənənəyə sadiq qalaraq bu dəfəki sayımızda Qurban bayramının müxtəlif müsəlman ölkələrində necə qeyd edilməsi faktlarını sizlərlə bölüşmək istərdik.
Qurban bayramı İslam dünyası üçün çox önəmli iki bayramdan biri olub, müsəlmanlar üçün vacib olan birlik, həmrəylik və yardımlaşma duyğusunun qorunub saxlanmasına kömək edir. Bu bayramda maddi imkanı olan müsəlmanlar müəyyən şərtlərə uyğun olaraq qurbanlar kəsirlər.

**Azərbaycan** - Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli " Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı Azərbaycanda dövlət səviyyəsində qeyd edilir. Müsəlman aləminin digər ölkələrində olduğu kimi, ölkəmizdə də Qurban bayramı xüsusi təmtəraq ilə qeyd edilir. İnsanlar bayram namazı qılır, məscidlərdə dualar oxuyur, daha sonra isə qurbanlar kəsərək ehtiyac sahiblərinə paylayırlar.

**Türkiyə** - İnsanların çoxu bayram namazından sonra qurban kəsmək və paylamaqla məşğul olurlar. Uşaqlar isə böyüklərdən aldıqları pullarla oyuncaq, şirniyyat almaq üçün mağazalara qaçır, küçələrdə bir-birinə aldıqları bayram hədiyyələri ilə öyünürlər. Böyüklər həyatın axarından uzaqlaşaraq bütün problemlərini bir kənara qoyub sevdikləri ilə vaxt keçirirlər. Hər evdə ət yeməkləri bişirilir, insanlar süfrə arxasında sevdikləri ilə səmimi söhbətlər edirlər.

**Qazaxıstan** - Qurban bayramını maraqlı adət-ənənələri ilə qeyd edən ölkələrdən biri də Qazaxıstandır. Bu ölkədə Qurban bayramı müxtəlif tədbirlər, bayram namazından sonra məscidlərin həyətində keçirilən ənənəvi idman yarışları ilə qarşılanır.

**Malayziya** - Məlum olduğu kimi, Malayziyada buddistlər və müsəlmanlar ortaq həyatı paylaşırlar. Bu səbəbdən iki fərqli inancın ritualları bir-biri ilə qarşılıqlı əlaqədə olur. Uzun illərdir ki, Malayziyada Qurban bayramı zamanı küçələr, qurbanlıq heyvanlar bəzədilir, hətta rənglənir.

**Əlcəzair** - Bu ölkədə bəzi qədim Qurban bayramı ənənələri hələ də davam edir. Belə ki, Əlcəzairdə adətən üçüncü gün qurban kəsilir. Həmin gün ölkənin müxtəlif yerlərində vətəndaşlar bir araya gələrək yaşadıqları rayonlarda izdihamlı süfrələr açırlar.

**Mərakeş** - Qurban bayramı Mərakeşdə "Böyük bayram" kimi də tanınır. Bu böyük günə hazırlıq bir neçə gün əvvəldən başlayır. Hökumət bayramdan əvvəl dövlət qulluqçularının maaşlarını yatırır və Qurban bayramı üçün banklara xüsusi kreditlər verir. Mərakeşdə ən maraqlı Qurban bayramı ənənəsi isə insanların qurbanlıq heyvanların buynuzları arasına xına vurmaları və bunun xeyir ilə nəticələnməsinə inanmalarıdır.

**Filippin** - Bu gün də filippinli müsəlmanlar Qurban bayramında çox maraqlı bir ənənəni qoruyub saxlayırlar. Qurban ibadətini yerinə yetirmək üçün iqtisadi gücə malik olan müsəlmanlar Qurban bayramının ilk günündə açıq ziyafət süfrələri açır. Süfrədə ən vacib yemək qurban ətidir. Arzu edənlər ziyafət süfrəsindəki yeməkləri evlərinə apara bilərlər. Lakin ziyafətin təşkilatçıları stolun arxasındakı stulların hər birinin altında bir qədər pul gizlədirlər, bu pullar stulda oturanlara aid olur.

**Türkmənistan** - Bu ölkədə də bayram namazından sonra qurbanlar kəsilir. Lakin Türkmənistanda Qurban bayramı bir çox ölkələrdən fərqli olaraq karnaval ab-havasında keçir. Ölkədə Qurban bayramı ilə bağlı xüsusi konsertlər və əyləncələr keçirilir. Qurban bayramı adətləri arasında bayram zamanı ölkə küçələrini dolduran yelləncəklər də var. Bayramı ənənəvi geyimlərlə qeyd edən türkmənistanlılar yelləncəklərdə yellənməklə günahlarından qurtulacaqlarına inanırlar.

# “Atəşgah” Sığorta Qrupunun Himni

Biz, inama doğru,
Nurlu sabaha yol gedirik.
Və işığa doğru,
Xoş gələcəyə biz baxırıq.
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

*Nəqarət:*
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə, Arxayın yaşa!

Biz, inama doğru
Nurlu sabaha yol gedirik
Və işığa doğru
Xoş gələcəyə biz baxırıq
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

*Nəqarət:*
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə,
Arxayın yaşa!